## ADF MƏRKƏZİ KOMİTƏSİNİN

## BƏYANATI

Əziz həmvətənlər!

Bu gün, nəhayət Azərbaycan Dövləti işğaldan azad olunmuş ərazilərdə anti-terror əməliyyatına başladı. Qəzanız mübarək olsun...

Qüdrətli Azərbaycan Dövləti və qəhrəman Azərbaycan əsgəri Xalqımızın qürür mənbəyidir. Vətən torpagının yaxını-uzağı olmaz. Vətən torpağının hər qarışı bizim üçün müqəddəs və əzizdir.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəsmi məlumatına görə, cari ilin sentyabr ayının 19-da Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsi sıradan çıxmış və mülki şəxslər həlak olmuşdur. Həmin gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsinin də Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən quraşdırılmış minaya düşməsi nəticəsində hərbi qulluqçularımız həlak olmuş və yaralanmışdır".

Dünya irticası və havadarlarına ümüd edən, İran faşist rejiminə arxalanan düşmən Azərbaycan əsgəri qarşısında acizdir və miskindir. Biz –Azərbaycan Demokrat Firqəsi olaraq və Güney Azərbaycanın azadlıqsevər çoxlugunun tərəfindən qüdrətli Azərbaycan Dövlətinə və qəhrəman Azərbaycan əsgərinə inanırıq və onunla qürür duyuruq. Azərbaycan ərazilərində başıpozux silahlıların, təxribatçıların, hərbi və siyasi qrupların kökünü kəsənə qədər mübarizəni davam etdirmək və ölkənin istiqlalına xələl gətirən hər bir addıma qarşı amansız olmağa çağırırıq.

Gözəl Vətənimizin işğaldan azad olması, təhlükəsizliyinin təmin edilməsi və onun yüksək rifahı naminə Xalqımızı birliyə və həmrəyliyə çağırırıq.

İlk gündən gələn şəhid xəbərləri bizi məyus deyil, məğrur və barışmaz etməli, dövlətimizin və əsgərimizin arxasında sona qədər  durmalıyıq.

Var olsun Azərbaycan əsgəri, Allah qəhrəman əsgərimizin şəhadətini qəbul etsin.

**Azərbaycan Demokrat Firqəsinin**

**SİYASİ HEYƏTİ**

**19.09.2023**